# Makroiqtisadi göstəricilərə dair məlumat

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

- 2022-ci ildə dünya iqtisadiyyatında qeyri-müəyyənliklər və resessiya riskləri daha da artmışdır. Təchizat zəncirində yaranmış problemlər, həmçinin enerji daşıyıcılarının və ərzaq məhsullarının qiymətlərinin qalxması qlobal inflyasiyanın yüksək səviyyəyə qalxmasını şərtləndirmişdir.
- Qeyd edilən proseslər fonunda hesabat dövründə Azərbaycan iqtisadiyyatında yüksək artım dinamikası davam etmiş, iqtisadi artıma həm daxili tələb, həm də xarici tələb amilləri müsbət təsir etmişdir.
- 2022-ci ildə 2021-ci ilə nisbətən **ÜDM** real ifadədə 4,6% artaraq cari qiymətlərlə 133,8 milyard manat, **adambaşına düşən ÜDM** isə 4,1% artaraq 13,3 min manat olmuşdur.
- 2022-ci ildə **neft-qaz sektorunda** istehsal olunmuş əlavə dəyər 2,7% azalmış, **qeyri neft-qaz sektorunda** isə 9,1% artmışdır. Qeyri neft-qaz sektorunun artım tempinə, əsasən, nəqliyyat və anbar təsərrüfatı, tikinti, turizm və ictimai iaşə sahələri yüksək artırıcı təsir göstərmişdir.
- 2022-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən **əsas kapitala 18,3 milyard manat və ya 2021-ci ilə nisbətən 5,5% çox vəsait yönəldilmişdir.** Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9,8% azalsa da, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 13,6% artmışdır ki, bu da əsasən dövlət mülkiyyətində olan təşkilatlar tərəfindən qoyulan investisiyalar hesabına olmuşdur.
- 2022-ci ildə **əsas kapitala yönəldilmiş investisiyaların** 29,6%-i **neft-qaz sektoruna**, 70,4%-i isə **qeyri neft-qaz sektoruna** yönəldilmişdir.

- 2022-ci ildə ölkə **əhalisinin nominal gəlirləri** 20,5% artaraq, 68,9 milyard manat və ya hər nəfərə orta hesabla 6844,9 manat təşkil etmişdir.

- 2022-ci ilin yanvar-noyabr ayları üzrə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin **orta aylıq nominal əməkhaqqı** 14,6% artaraq, 829,9 manat təşkil etmişdir.

- Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2022-ci ilin yanvar-noyabr aylarında **xarici ticarət dövriyyəsinin** həcmi 49,2 milyard ABŞ dolları, o cümlədən **ixracın** həcmi 36,3 milyard ABŞ dolları və **idxalın** həcmi isə 12,9 milyard ABŞ dolları olmuş və 23,5 milyard ABŞ dolları həcmində **müsbət ticarət saldosu** yaranmışdır. 2022-ci ilin yanvar-noyabr aylarında 2021-ci ilin müvafiq dövrünə nəzərən **qeyri neft-qaz ixracı** 14% artaraq 2,7 milyard ABŞ dolları olmuşdur.

- 2022-ci ildə 2021-ci ilə nəzərən **dövlət büdcəsinin gəlirləri** 16,2% artaraq 30,7 milyard manat, **dövlət büdcəsinin xərcləri** isə 16,7% artaraq 32 milyard manat olmuşdur. Nəticədə 2022-ci ildə dövlət büdcəsinin icrası zamanı 1,3 milyard manat **büdcə kəsiri** yaranmışdır.

- 2022-ci ilin sonu tarixinə ölkənin **strateji valyuta ehtiyatları** 58,5 milyard ABŞ dolları təşkil etmişdir ki, bu da 2022-ci il üzrə ÜDM-in (78,7 milyard ABŞ dolları) 74,4%-nə bərabərdir. Azərbaycan Respublikası Mərkəzi Bankının **rəsmi valyuta ehtiyatları** isə 2022-ci ilin sonu tarixinə 2021-ci ilin sonu ilə müqayisədə 27,1% artaraq 9,0 milyard ABŞ dolları olmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ




2022-ci ildə yüksək iqtisadi artıma nail olunmuşdur.

Neft-qaz ÜDM-də real ifadədə azalma olsa da, dünya bazarlarında neft qiymətlərində müşahidə olunan yüksək artım neft-qaz ÜDM-in nominal ifadədə 78,9% artmasına səbəb olmuşdur.

**13292,2** adambaşına ÜDM manat

**133,8** ÜDM mlrd. manat

**4,6%** ÜDM real artım tempi

**52,2%** Qeyri neft-qaz sektorunun ÜDM-də payı

**47,8%** Neft –qaz sektorunun ÜDM-də payı

**9,1%** Qeyri neft-qaz ÜDM real artım tempi

**-2,7%** Neft-qaz ÜDM real artım tempi

# Ümumi Daxili Məhsulun real artım templərinin dinamikası, faizlə

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ




**Mənbə: Dövlət Statistika Komitəsi**

# Sahələr üzrə yaradılmış əlavə dəyər göstəriciləri (2022-ci il)

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

Qeyri neft-qaz ÜDM-inin bütün sahələrində iqtisadi artım müşahidə olunmuşdur.



**Sənaye**

**68434,7 mln. manat**

**1,6% azalma**

**o cümlədən,**

**qeyri neft-qaz sənayesi**

**6093,8 mln. manat**

**5,7% artım**



**Kənd təsərrüfatı**

**6376,3 mln. manat**

**3,4% artım**



**Tikinti**

**6471,6 mln. manat**

**13,4% artım**



**Ticarət**

**11027,4 mln. manat**

**3,2% artım**



**Turizm və ictimai iaşə**

**2115,2 mln. manat**

**58,2% artım**



**Nəqliyyat və anbar təsərrüfatı**

**8041,9 mln. manat**

**23,2% artım**




**İnformasiya və rabitə**

**1885,6 milyon manat**

**14,8% artım**

# Əsas kapitala yönəldilmiş investisiyaların strukturu

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**Qeyri neft-qaz sektoruna** yönəldilən vəsaitin həcmi **13,6**% artmışdır.




**Mənbə: Dövlət Statistika Komitəsi**

# İstehlak bazarı və real artım tempi

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## 2022-ci il

### İstehlak bazarı

- 63010,4 milyon manat (4,4% artım)

### Pərakəndə ticarət

- 52171,0 milyon manat (3,1% artım)

### İctimai iaşə

- 1586,0 milyon manat (37,0% artım)

### Ödənişli xidmətlər

- 9253,4 milyon manat (8,0% artım)

**İstehlak bazarının strukturunun dinamikası, faizlə**




**Mənbə: Dövlət Statistika Komitəsi**

## Əhalinin gəlirlərinin nominal artım tempi inflyasiyanın səviyyəsini üstələmişdir.

**Əhalinin nominal gəlirləri (2022-ci il)**

- **68,9 milyard manat (20,5% nominal artım)**

**Hər nəfərə düşən gəlirlər (2022-ci il)**

- **6844,9 manat (19,9% nominal artım)**

**Orta aylıq əməkhaqqı (2022-ci il yanvar-noyabr)**

- **829,9 manat (14,6% nominal artım)**

**İqtisadi fəal əhalinin sayı (01.01.2023-cü il tarixinə)**

- **5358,4 min nəfər**

**Məşğul əhali (01.01.2023-cü il tarixinə)**

- **5056,2 min nəfər**

**Orta aylıq əməkhaqqı (manatla) və əhalinin gəlirlərinin real artım templərinin (faizlə) dinamikası**




**Mənbə: Dövlət Statistika Komitəsi**

# Xarici ticarət (2022-ci il yanvar-noyabr)

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

Qeyri neft-qaz ixracında yüksək artım tempi davam etməkdədir.

| | |
|---|---|
| **Xarici ticarət dövriyyəsi** | • **49,2 milyard ABŞ dolları (62,9% artım)** |
| **İxrac** | • **36,3 milyard ABŞ dolları (83,5% artım)** |
| **Qeyri neft-qaz ixracı** | • **2,7 milyard ABŞ dolları (14,0% artım)** |
| **İdxal** | • **12,9 milyard ABŞ dolları (23,8% artım)** |
| **Saldo** | • **+ 23,5 milyard ABŞ dolları** |

**Xarici ticarət dövriyyəsi, milyard ABŞ dolları**




**Mənbə: Dövlət Gömrük Komitəsi**

# Dövlət büdcəsi

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**2022-ci ildə dövlət büdcəsinin icrası zamanı 1,4 milyard manat büdcə kəsiri yaranmışdır.**

## 2022-ci il

**Dövlət büdcəsinin gəlirləri**
**30660,6 milyon manat (16,2% artım)**

**Dövlət büdcəsinin xərcləri**
**32063,9 milyon manat (17,0% artım)**

**Büdcə kəsiri**
**1403,3 milyon manat**

**Dövlət büdcəsinin gəlirləri və xərcləri, mlrd.manat**




**Mənbə: Dövlət Statistika Komitəsi**